Mə dəni-maarif.- 2006.





# Mənalı ömür sahibi

Qədəm qoyduğumuz 2006-cı il həm də yubileylərlə zəngin olacaqdır. Ayrı-ayrı müəssisə, təşkilat və şöbələrin planlaşdırdığı tədbirlər arasında özünəmünasib yer tutan şair və yazıçılarımızın, elm və mədəniyyət xadimlərinin doğum günləri daha çox yadda qalacaq, rəngarəng ssenarilər əsasında adamlarımızın diqqətinə çatdırılacaqdır.

Maraqlıdır ki, yubilyarlar arasında Ağcabədi (Rza Qulıyev), Bərdə (Soltan Həsənov), Mingəçevir (İdris Məmmədov), Hacıqabul (Rahib Məmmədov) və Biləsuvar (Rəfiqə Cəfərova) rayon mədəniyyət şöbə müdirlərinin də adlarına rast gəlirik.

Ömrün 60-cı pilləsində qərarlaşan Soltan müəllimin haqqında bu sayımızda ətraflı bəhs olunduğundan və digər yubilyarların ad günləri sonrakı aylara təsadüf etdiyindən söhbətimizi Rza Quliyev ətrafında cəmləşdirmək istəyirik.

Rza müəllimin yanvarın 31-də 50 yaşı tamam olur. Ağaran saçlarına, ağır hərəkətinə, müdrik davranışına baxanda düşünürsən ki, o, 50 yaş həddini çoxdan keçib. Vəzifəsinə məsuliyyətini, işinə ürəkdən bağlılığını, onu gənclik eşqilə həyata keçirdiyini görəndə isə bu yubileyə şübhə ilə yanaşırsan. Yəqin ki, Rza müəllim özü də yarım əsri arxada qoyduğuna inana bilmir: «Həyat bir yuxu imiş ki?!»

Elədir, Rza müəllim! İnsanın başı nəcib işlərə, qurub-yaratmağa qarışanda, bütövlükdə, ömür mənalı keçəndə həyat şirin bir nağılı xatırladır. Yubileylə başladığınız 2006-cı il qoy Sizə bol-bol uğur gətirsin! Mərdiməzarlardan uzaq olasınız. Gərgin zəhmətiniz öz gözəl bəhrəsi ilə həmişə üzünüzü güldürsün! Bir daha Sizi səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, nəcib işlərinizdə müvəffəqiyyətlər diləyirik!

*Y. Hidayətoğlu*